## MÖVZU 19. Bələdçinin innovasiyalı yaradıcılıq xüsusiyyətləri.

Plan.

İnnovasiyalı yaradıcılığın mahiyyəti. İnnovasiyalı bələdçinin mədəniyyət, cəmiyyət və sosial mühitlə münasibətləri. Bələdçinin tur və ekskursiyalarda innovasiya fəaliyyəti. Bələdçinin innovativ tur və ekskursiya məhsulunun istehsalında rolu. Bələdçi işində texniki innovasiyalar. Audiobələdçilik və onun üstünlükləri. Virtual tur və ekskursiyalar və onların üstünlükləri. GPS və geoinformasiya texnologiyaları. QR-kodlar və smart turlar və ekskursiyalar. Kvest tur və ekskursiyaların üstünlükləri və təşkili xüsusiyyətləri.

**İnnovasiyalı yaradıcılığın mahiyyəti. İnnovasiyalı bələdçinin mədəniyyət, cəmiyyət və sosial mühitlə münasibətləri.**

Hazırda innovasiyalar cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrini əhatə etməklə, müasir mədəniyyətin inkişaf məntiqini daha dolğun əks etdirir. Cəmiyyət və mədəniyyət öz təməllərini, elmi və texnoloji tərəqqi isə ünsiyyət yollarını, ünsiyyət formalarını, şəxsiyyət tiplərini və həyat tərzini dəyişdirir. İnnovasiyalar həm fərdin, həm də bütövlükdə bəşəriyyətin indiki vəziyyətini və gələcəyini fasiləsiz olaraq transformasiya edən həlqələr və attraktorlardır.

İstehlakçı tələbindəki və istehlak modellərindəki qlobal dəyişikliklər prosesi turizm sənayesində geniş yayılmışdır. Bu özünü bələdçilik fəaliyyətində, innovativ turvə ekskursiya proqramlarının hazırlanmasında və turizm xidmətlərinin istehlakçıları ilə qarşılıqlı əlaqənin yeni interaktiv yollarının axtarılmasında göstərir. Nəticədə ölkənin, bölgənin və gedilən yerin dilinə və mədəniyyətinə turist və ekskursantların marağını artırır.

Müasir dövrdə turizm və ekskursiya xidmətlərinin istehlakçıları əvvəlki nəsillərdən çox fərqlənir: o, nə əldə etmək istədiyini dəqiq bilir, o, yüksək texnologiyaları bilir və yeni təcrübə qazanmağa çox meyllidir. Demək olar ki, informasiya əldə edilməsi imkanlarının qeyri-məhdudluğu müasir dövrdə turizm xidmətləri istehlakçılarına sosial şəbəkələrdə və ixtisaslaşdırılmış platformalarda öz şəxsi təcrübələrini bölüşmək üçün geniş imkanlar açır. Müasir turizm tələbinin bir

xüsusiyyəti, turistin statusunun və mövqeyinin əsasını təşkil edən turizmin simvolik (işarə) dəyərinin artmasıdır. Artıq maddi məhsullar və xidmətlər sosial və fərdi status mövqelərinin fərqləndirilməsində öz əhəmiyyətini itirir. Belə bir şəraitdə turizm-ekskursiya səfərlərinin yeni rəmzi (iconic) dəyəri yaranır ki, bu da müvəffəqiyyəti və müəyyən sosial qrupa, həyat tərzinə, ideoloji meyllərə, şəxsi keyfiyyətlərə mənsubluğu simvollaşdırır.

Turizm və ekskursiya məhsulları istehlakının nümayişkaranəliyi turistlərin və ekskursantların fərdi məqsədləri kontekstində aktual olan unikallığı tələb edir. Müasir mədəniyyət öz mövcudluğunda dövr üçün xarakterik olan innovativ xarakterini nümayiş etdirir, üstün sosial-mədəni qurumlardan biri kimi çıxış edir, şüurlu şəkildə innovasiya ilə "qovuşur" və formalaşmış ənənəni tamamilə aradan qaldırmasa da, onun üzərində əhəmiyyətli dərəcədə üstünlük təşkil edir.

Lakin innovasiyanın yalnız XX əsr mədəniyyətinin və cəmiyyətinin fenomeni olduğunu söyləmək səhv olardı. İlk dəfə mədəni diskursda işlədilən innovasiya anlayışı, kifayət qədər geniş təfsir olunurdu. "İnnovasiya" termini "ənənə" anlayışının antonimi kimi izah edilirdi və mədəniyyətdəki dəyişikliklərin araşdırılması ilə əlaqədar istifadə olunurdu. Burada innovasiyalar mədəniyyətdə yeniliklərin obyektivləşdirilməsi modeli kimi şərh edilir. Bu mənada, innovasiyalar cəmiyyətin istənilən tipinə və mədəniyyətin istənilən dövrünə tətbiq olunur.

"İnnovasiya" termini elmi dövriyyəyə ilk dəfə Amerikalı iqtisadçı, professor Jozef Şumpeter tərəfindən daxil edilmişdir. Şumpeterə görə "innovasiya" istehsalçının sərəncamında olan bütün yeniliklərin - materialların, istehsal üsullarının, məhsulların bazarda təklifi imkanlarının, yeni bazarların yaradılmasının vahid tam şəkildə birləşdirilməsidir. İnnovasiya, müəssisələrin mal və xidmətlər bazarındakı ən sərt rəqabətə tab gətirməsinə kömək edir.

Ümumiyyətlə, innovasiya proses kimi innovativ məhsulun yaradılması ilə nəticələnən elmi, texnoloji, təşkilati, iqtisadi, kommersiya tədbirlərinin vəhdətindən ibarətdir.

**Bələdçinin tur və ekskursiyalarda innovasiya fəaliyyəti.**

Bələdçinin tur və ekskursiyalarda innovasiya fəaliyyətinə tur və ekskursiyaların mövzusu və formasına, ekskursiya marşrutlarına inteqrasiya olunmuş animasiya proqramlarına, ekskursiyaların inkişafı və təkmilləşdirilməsinə yeni yanaşmaları, bələdçilər tərəfindən istifadə olunan yeni metodoloji texnika və texnologiyalar aid edilir. Belə ki, yüksək rəqabət şəraitində turizm sahəsində fəaliyyətlər daimi və dinamik inkişaf tələb edir.

Turistlərin tələbləri artdıqca onların fərdi istəklərini nəzərə almayan, emosional cəhətdən canlı, yaddaqalan və mənalı təəssüratlar yaratmayan standart turizm təkliflərindən narazılıqları da artır. Bu gün turistlər fərdi imkanlarına, bacarıqlarına yüksək dərəcədə diqqət yetirərək bənzərsiz bir təcrübəni və fərdiliyini yaradıcı formada ifadə etmək üçün şərait tələb edir. Ona görə müasir bələdçilər turist-ekskursantların tələbləri və turizm məhsulunun və xidmətlərinin inkişaf meyilləri ilə tanış olmalı, ekskursiyanın mövcud texnika və metodlarını praktik işlərində tətbiq etməyə çalışmalıdırlar.

İnnovasiya bugünkü rəqabətli turizm biznesi mühitində turizm-ekskursiya müəssisəsinin davamlı fəaliyyəti üçün çox vacib amildir. Ona görə də bələdçilər ümumi innovativ xarakterli olmaq üçün turizm müəssisələrinin və təşkilatının bütün aspektləri ilə bağlı müxtəlif növ innovasiya fəaliyyətini təmin etməlidirlər.

**Bələdçinin innovativ tur və ekskursiya məhsulunun istehsalında rolu.**

Tur və ekskursiya məhsulunu o zaman innovativ hesab etmək olar ki, onun istehsalında ən yeni texnologiyalardan, məhsulun yaradılması və tətbiqi üçün konstruktiv yeni üsul və metodlardan istifadə edilir. İnnovativ ekskursiya məhsulunun hazırlanmasında marketoloqlar, reklam üzrə mütəxəssislər, metodistlər, peşəkar bələdçilər, elm və mədəniyyət nümayəndələri iştirak edirlər. Turizm fəaliyyətində innovasiyalar ümumi qəbul edilmiş innovasiya konsepsiyasına uyğun olaraq təsnif edilir. Tur və ekskursiyalarda innovasiyaların aşağıdakı növləri fərqləndirilir:

-bələdçinin tur və ya ekskursiya məhsulunun hazırlanmasında innovasiyası;

-bələdçinin tur və ya ekskursiyaların hazırlanması və keçirilməsi texnologiyasında innovasiyaları;

-bələdçinin tur və ya ekskursiyalarda istifadə etdiyi texniki innovasiyalar;

-bələdçinin tur və ya ekskursiya fəaliyyətinin marketinqində və idarə olunmasında innovasiyaları;

-bələdçinin şəxsi innovasiyaları (bələdçinin görünüşü, ekskursiya stili).

Tur və ekskursiya məhsulu (ekskursiya) ən son texnologiyalardan, yeni texnika və konstruksiyalardan, tətbiqetmə üsullarının istifadə edilməsi şərti ilə tərtib və istehsal edildikdə innovativ adlandırıla bilər. Həm təkmilləşdirilmiş klassik, həm də praktikada tətbiq olunan yeni tur və ekskursiya xidmətləri innovativ ola bilər. Beləliklə, bələdçinin tur və ekskursiya praktikasında yenilikçi yanaşmaları, turistlər və qonaqlar ilə aktiv qarşılıqlı fəaliyyətə yönəlmiş interaktiv xidmət formalarından istifadə etməsi, turizm xidmətləri bazarının inkişafına kömək edir.

**Bələdçi işində texniki innovasiyalar.**

Bələdçilik fəaliyyətində texniki innovasiyaların tətbiqi də eyni dərəcədə mühüm innovasiya istiqamətlərindən biridir. Kompüterləşdirmənin və müxtəlif texniki informasiya vasitələrinin-smartfonların, planşetlərin, audiobələdçilərin, videokameraların, mobil telefonlar üçün əlavələrin köməyi ilə ənənəvi tur və ekskursiyalar, müasir informasiya məkanında innovasiyalı, çox rahat və maraqlı turizm proseslərinə çevrilmişdirlər. Texniki yeniliklərin əksəriyyəti tur və ekskursiyaların nümayiş obyektlərini turist və ekskursantların müstəqil şəkildə öyrənmək imkanını təmin etmək məqsədilə istifadə olunur.

Çox vaxt turizm fəaliyyətində texniki innovasiyalara aşağıdakılar aid edilir:

1) audio tur və ekskursiyalar;

2) VR tur və ekskursiyaları;

3) GPS tur və ekskursiyaları;

4) QR kodlarından istifadə etməklə tur və ekskursiyalar;

5) mobil təlavələr, onlayn xidmətlər, səyahət bələdçiləri və istinad kitablarının tətbiqi ilə təşkil edilən tur və ekskursiyalar (VR reallığı üçün proqramlar daxil olmaqla) və s.

Bu gün turizm xidmətləri sahəsində texniki yeniliklərin tətbiqi ən çox müasir mobil radio sistemlərinin istifadəsi ilə müşayiət olunur. Onlardan: səsli bələdçilər, radiobələdçi, radiosistem, çoxfunksiyalı ekskursiya qurğuları, audiokiosklar və s.-i qeyd etmək olar.

Audio tur və ekskursiyaların yaradılmasının əsasında audiobələdçi əsasında qurulmuş və turizm və ekskursiya obyektləri olan bir neçə audio-parçalardan ibarət texnologiya durur.

Audiobələdçi-muzeyin ekspozisiyası, sərgi, ərazi ilə sərbəst tanış olmaq üçün istifadə olunan fonoqram və onun səsləndirilməsi üçün qurğudur. Adətən audio bələdçi bir neçə audio parçalrından ibarət olur. Hər bir səs parçası (fraqment) nömrələnir və nəzərdən keçirilən ərazinin, muzeyin sxeminə və ya eksponatların nömrələrinə uyğun sıralanır və səsləndirilir.

Audiobələdçilər aşağıdakı hallarda istifadə edilir:

1.tur və ya ekskursiyanın xarici dildən ana dilinə tərcümə edilməsinə ehtiyac olduqda, tərcüməçi olmayanda;

2.turist və ya ekskursant turizm obyektini qrupun tərkibində yox, fərdi olaraq araşdırmaq istəyəndə.

Audiobələdçi ziyarətçinin müşahidə ardıcıllığını müşayiət edən texnologiyadır. Cihazda olan lövhəcikdə göstərilən maraqlı obyektin zəruri nömrəsini yığmaqla turist-ekskursant obyekt barədə lazımi məlumatı əldə edə bilir. Qeyd etmək lazımdır ki, audiobələdçi tərəfindən verilən məlumatlar obyekt barədə gözlə görünə bilməyən məlumatları tamamlayır və aydınlaşdırır.

Turizm fəaliyyətində audiobələdçilərdən istifadə, bələdçilərə və ekskursiya təşkilatçılarına bir sıra mühüm üstünlüklər verir:

1) turist qrupu ilə məsafədən ünsiyyət qurma imkanı;

2) müxtəlif dillərdə bir neçə ekskursiya qrupuna rəhbərlik etmək imkanı;

3) sinxron tərcümə sistemlərindən istifadə imkanı.

Audiobələdçilərin tətbiqi xərcləri azaldır və ekskursiya rəhbərlərinin işinin rahatlığını və sabitliyini təmin edir, xarici turistlərlə xidmət işini əhəmiyyətli

dərəcədə asanlaşdırır. Bundan əlavə, bəzi hallarda audiobələdçilər turizm bələdçisini tamamilə əvəz edə bilər.

Bu gün xüsusi nəqliyyat vasitələri ilə ekskursiyalarda çoxdilli audiobələdçilərdən geniş istifadə olunur.

Audioturlar görmə qabiliyyəti məhdud olan turist-ekskursantlar üçün təşkil edilir. Audioekskursiyanın keçirilməsi prosesində görmə qabiliyyətindən məhrum olan adam evdə, adət edilmiş şəraitdə qala bilər və ya digər insanların müşayiəti ilə nümayiş yerində iştirak edə bilər. Audiobələdçidən fərqli olaraq audioekskursiya əvvəldən axıra qədər planlaşdırılmalı və kompleks ekskursiya mətninin təqdim edilməsini nəzərdə tutmalıdır. Bu gün ənənəvi muzey audio tur və eksursiyaları daimi sərgilərin ziyarətinin əsas hissəsini təşkil edir.

Audiotur çoxkomponentli turizm məhsuludur.

Birinci komponent-audioekskursiyanın özü maraqlı bir mətnlə müəyyən "ərazi üzərində" gəzintini nəzərdə tutur.

İkinci komponentt, qiyabi tanışlıq imkanıdır. Belə ki, turun proqramının xüsusi bir "komponenti" mövcud olur. Həmin "komponent" sayəsində audioekskursiyanı "təbii" ekskursiyadan əvvəl, sonra və ya eyni vaxtda evdəki adi kompüterdə dinləmək olar. Evdə dinləmə zamanı qabıqdakı səslə yanaşı, mövcud illüstrasiya materialını da müşahidə etmək olar.

Məhsulun üçüncü komponenti audio tur-ekskursiya kimi audiokitabdan ibartdir. Yəni marşrut boyunca audiopleyerlə gəzmək vacib deyil. Əhatə olunan ərazi barədə fikriniz yaxşıdırsa və həmin ərazidən uzaqsınızsa, ekskursiya tamamilə fərqli bir yerdə "təşkil edilə" bilər.

Nəhayət, bir qat daha var. Səs versiyasına əlavə olaraq diskdə FULLPLUS deyilən versiyanı da tapa bilərsiniz. Bu eyni audio turdur, lakin AVI formatında (foto və illüstrasiyalarla) slayd-şou kimi hazırlanır və ona adi DVD pleyerdə baxmaq mümkündür.

**Audiobələdçilik və onun üstünlükləri.**

Audio-bələdçilik (audioekskursiya) fərdi qaydada müəyyən şəhərdə və ya yerdə özünüz üçün tur və ya ekskursiya təşkil etməyin ən rahat yoludur, yəni xüsusi bir yerə getmədən və xüsusi bir saytdan audio tur və ya ekskursiyanı yükləməklə səyahət edə bilərsiniz.

Audio tur və ekskursiyaların aşağıdakı üstünlüklərini vurğulamaq olar:

1.tanımadığınız insanlar ilə vaxt keçirməyə ehtiyac yoxdur, çünki istehlakçı tur və ya ekskursiyanı harada və nə vaxt dinləməyə özü qərar verir;

2.tez-tez, real turist və ekskursantların arasında olmaqla, obyektləri hərtərəfli öyrənmək mümkün olmur, çünki bələdçi və qrup obyektlərin arasından, qarşısından keçərək sürətlə hərəkət edə bilər. Audio tur və ya ekskursiya zamanı qrupdan ayrılmaq və ya geri qalmaq mümkün deyil, çünki əlavədə xəritə var;

3.audio tur və ya ekskursiyadan istifadə etməklə istənilən obyektdən ekskursiya məlumatlarını dinləmək imkanı olur;

4.audio tur və ya ekskursiya tez-tez ruhlandırıcı rol oynayır, çünki əgər insan real tura getməyi planlaşdırırsa, audiotur vasitəsilə marşrutla tanışlıq, ziyarət edilən yer haqqında ilkin təsəvvür formalaşdıracaq ki, bu da real tur və ya ekskursiyanın daha məhsuldar qavranılmasına kömək edəcək;

5.audio tur-ekskursiya özünütəhsilin vacib bir forması, yeni bilik mənbəyidir;

6.audio tur və ya ekskursiyaların köməyi ilə ekskursant səyahət marşrutlarını özü təşkil edə bilər.

**Virtual tur və ekskursiyalar və onların üstünlükləri.**

Müasir informasiya məkanı internetdə sərbəst girişi olan və geniş auditoriyaya üçün əlçatan olan virtual tur və ya ekskursiyalardan istifadə etməyə imkan verir.

Bu gün demək olar ki, hər bir dövlət muzeyi foto, video və audio fayllarla zənginləşdirilmiş ətraflı virtual tur və ekskursiyalar təqdim edir. Virtual tur ekrandakı üç ölçülü çox elementli, real məkan təsviri metodudur. Bu cür layihələrin elementləri interaktiv əlaqələr - keçidlər, yəni qaynar nöqtələr ilə bir-birinə birləşdirilmiş sahə mənzərələridir.

Üç növ virtual tur var:

1.tam sıxılmış tur;

2.astral şəkildə sıxılmış tur;

3.açıq hərəkətli tur.

Tam sıxılmış virtual turlar əvvəldən axıra qədər hazırlanmış "marşrut"u nəzərdə tutur. Öz növbəsində, qismən sıxılmış virtual turlar "dayanmağa" və "ətrafa baxmağa" imkan verir, yalnız bundan sonra səhnələr arasında keçid edilə bilər. Açıq hərəkət virtual turlar muzeyin 3-D modelləşdirməsi ilə hazırlanmış tam virtual proyeksiyasını təqdim edir. Virtual turlara baxmaq üçün əsas proqram veb brauzerlərdir (Google Chrome, Opera və başqaları).

Virtual turların bir neçə üstün cəhəti var:

1.böyük maddi və vaxt məsrəflər olmadan gəzməli yerlərə səyahət etmək;

2.istənilən vaxt görmək imkanı;

3.turun materiallarının və təklif olunan məlumatların təkrar istifadəsi.

Bu üstünlüklərlə yanaşı bir sıra çatışmazlıqlar da diqqət çəkir:

1.əks əlaqənin olmaması;

2.ekspozisiya obyektlərinin natamam müşahidəsi;

3.təəssürat və qavrayışların məhdudluğu.

Virtualtur və ekskursiyalar çox vaxt sağlamlıq imkanları məhdud insanlar üçün, vəsaitə qənaət etmək məqsədilə, həmçinin ekskursiyanı seçmək imkanı üçün yaradılır.

VR-ekskursiyalar turizm məhsulu obyektinin təqdimatının və texniki vasitələrinin qarışıq istifadəsidir. Əvvəlcədən hazırlanmış tur materialını ilkin emalı olmadan VR tur və ya ekskursiyasının həyata keçirilməsi qeyri-mümkündür. Dünya şöhrətli turizm nümayişi obyektlərinin saytlarında təqdim olunan VR turlar daha geniş yayılmışdır. Bu istiqamətdə ən məşhur virtual məhsul resursu "Sites in VR"-dir. "Genişlənmiş reallıq" və "3D" virtual ekskursiyalarda ekskursiya obyektinin təqdim edilməsinin xüsusi formalarıdır.

**GPS və geoinformasiya texnologiyalar.**

Tur və ekskursiyaların təşkilində GPS texnologiyalarından da geniş istifadə edilir. Bir çox ölkələrdə və turizm destinasiyalarında GPS-lə təchiz edilmiş xüsusi turist nəqliyyat vasitələri fəaliyyət göstərir. Belə nəqliyyat vasitələrində olan

ekskursant, şərh formasında səsli müşayiət olunur və xüsusi monitorda obyektin təsviri verilir. Kompyuterləşmiş ekskursiya nəqliyyat vasitələri yüzlərlə obyekt barədə informasiya olan xəritə ilə təchiz edilir. Belə nəqliyyat vasitələrində məlumatlar müxtəlif dillərdə təqdim edilə bilir.

Tur və ekskursiyalarda GPS texnologiyalardan başqa geniş istifadə edilən texnologiyalardan biri də geoinforsiya texnologiyalarıdır. Bu texnologiyalar turizm-ekskursiya məhsullarının modelləşdirilməsi və formalaşdırılması, informasiyanın əldə edilməsi və təhlili, axtarılması üçün istifadə edilən və perspektivli istiqamətlərdən biridir. Turizm bələdçiliyi fəaliyyətində GİT-in istifadə edilməsi innovativ xarakterlidir, çünki bu texnologiyaların əsasında müxtəlif mürəkkəblik səviyyəsinə malik marşrutlar tərtib etmək mümkündür. Məsələn, istənilən topoqrafik marşrutun tərtibində bu texnologiyadan istifadə etmək olar.

**QR-kodlar və smart ekskursiyalar.**

Turizm bələdçiliyi fəaliyyətində QR-kodlar (QR-quick response-tez cavab) kifayət qədər geniş istifadə edilir. Bu texnologiyanın ən böyük üstünlüyü ondan ibarətdir ki, skayner (o cümlədən mobil telefonun kamerası ilə) vasitəsilə informasiyanın asanlıqla ayıdr edilməsi və istifadə edilməsi imkanları var. Eyni zamanda QR-kodlar böyük həcmdə tutuma malikdir. Bu da QR-kodlardan istisnasız olaraq bütün fəaliyyət sahələrində istifadə edilməsinə imkan verir. QR-koddan istifadə üçün internetə girmək şərti o zaman tələb edilir ki, QR-kodda veb-sayta istinad şifrələnmiş olsun. QR-kodlar tarixi və mədəni obyektlərə, incəsənət əsərlərinə, təbi abidələr yerləşdirilə bilir. Turist və ekskursantlar QR-kodların köməyi ilə turların nümayiş obyektləri barədə əlavə informasiya almaq imkanına sahibdirlər. Əlavə informasiya kimi tarixi arayış, fotoşəkil, nümayiş obyektinin formalaşma və inkişaf mərhələləri, obyektlə bağlı müxtəlif məlumatlar (şəxsin avtobioqrafiyası, destinasiya barədə statistik və s. məlumatlar) və s. çıxış edə bilər.

QR-kodların istifadəsi çox vaxt müxtəlif şirkətlər üçün tərtib edilmiş mobil əlavələrlə və ya əlavə informasiya ilə birləşdirilir. Turizm-ekskursiya obyekti barədə informasiyanın yerləşdirilməsi üsulu obyektə xidmət edən müəssisə və ya idarə tərəfindən müəyyən edilir.

Obyektlərə xidmətlərin idarə edilməsində müxtəlif könüllü təşkilatlar xüsusi fəallıq göstərirlər. Ona görə bu təşkilatlar da informasiyanın verilməsi formasının müəyyənləşdirilməsində iştirak edirlər.

Smart tur və ekskursiyalar şəhər həyatının müxtəlif aspektləri barədə informasiya almağa, müxtəlif "sirr" saxlayan smart-kvestlərin təşkil edilməsinə imkan verir. Bu gün planşet və mobil smartfonlar üçün tərtib edilmiş mobil əlavələr daxili turizmin təşviqinə və turizmdə investisiya layihələrinin genişləndirilməsinə innovativ yanaşmaların inkişafına imkan verir. Mobil ekskursiya əlavələri (TravelMe, izi.Travel, Azbo, Microsoft, Yandex və Google Translate və s.) geniş istifadə edilir.

**Kvest tur və ekskursiyaların üstünlükləri və təşkili xüsusiyyətləri.**

Hal-hazırda kvest tur və ekskursiyalar formasına görə qeyri-adi innovativ turizm-ekskursiya məhsuludur və ona tələb kifayət qədət yüksəkdir.

Kvest tur və ekskursiya anlayışını ekskursiya və kvest sözlərinin mahiyyətinə müvafiq şərh etmək olar. Kvest ingilis sözü (quest) olub, axtarış, axtarış predmeti, macəra axtarmaq kimi mənalarda işlədilir. Müasir anlamda kvest kompüter oyunu-hekayədir. Bu oynda oyunçu tərəfindən idarə olunan qəhrəman süjetdə irəliləyir və obyektlərin istifadə etməklə, digər personajlarla ünsiyyət və məntiq problemlərinin həlli yolu ilə oyun aləmi ilə qarşılıqlı əlaqədə olur. Kvest tur və ekskursiya konsepsiyasının etimologiyasının xüsusiyyətlərini nəzərə alaraq aşağıdakı tərif formalaşdırıla bilər. Kvest tur və ya ekskursiya, fərdi turistlər və ya turist qrupları tərəfindən oyun elementləri olan ekskursiya obyektlərinə ziyarətlər təşkil edən xidmətdir və turist və ekskursantlar bu obyektləri məntiqi problemləri həll edərək, lazımi məlumatları axtararaq, bələdçi, bələdçi-tərcüməçinin müşayiəti ilə müxtəlif informasiyanı dinləyərək, nümayiş obyektlərini müşahidə edərək ekskursiya obyektlərini tanıyır və öyrənirlər.

Kvest tur və ekskursiyalar bir sıra üstünlüklərə malikdirlər. Birincisi, bu ekskursiyalar prosesin interaktivliyi ilə seçilir.

İkincisi, kvest tur və ekskursiyalar digər ekskursiya formaları ilə müqayisədə yerli turizm bazarında unikallığına görə fərqlənir, çünki turistlər üçün müxtəlif

materialı birləşdirə və nümayiş etdirə bilir  və ona görə bu tur və ekskursiya növünə tələbat artır.

Üçüncüsü, yaşa görə əhalinin istənilən kateqoriyası kvest tur və ekskursiyanın iştirakçısı ola bilər. Problemlərin həlli, obyektlərin axtarışı, məlumatla işləmək həm uşaqlar, həm də böyüklər üçün maraqlı olur. Bu cür texnologiya həm ekskursiyanın təşkil olunduğu bölgə sakinləri, həm də qonaqları üçün maraqlı ola bilər.

Dördüncüsü, kvest turlarda və ekskursiyada nümayiş obyekti daha yaxşı yadda qalır, çünki turist və ekskursantlar məlumatı yalnız bələdçidən yox, həm də müxtəlif informasiya mənbələri ilə fəal şəkildə əlaqə qurmaqla ala bilir.

Beşincisi, kvest tur və ekskursiyalarda nümayiş olunan obyektlər yalnız şəhərin ən görməli yerləri olmur. Adi tur və ekskursiyalarda daha az əhəmiyyət verilən obyektlər kvest tur və eksursiyaların proqramına daxil edilə bilər.

Kvest tur və ekskursiyanın üstünlüklərinə informasiyanın müxtəlifliyini, uşaq auditoriyası üçün aktual olan interaktiv iştirak formalarını, dərketmə üçün maraqlı informasiya ilə zənginliyini aid etmək olar. Kvest tur və ekskursiyanın əsas məqsədi, tədbir proqramının yüksək dərketmə səviyyəsini təmin etməkdən ibarətdir.

Kvest tur və ekskursiya formatının populyarlığı uşaqların oyuna yüksək marağı ilə balıdır. Belə tur və ekskursiyalar zamanı uşaqlar uzun müddət ərzində çox zehni iş tələb edən məlumatları asanlıqla əzbərləyirlər. Bu zaman uşaqlara tapşırıq müxtəlif formalarda verilə bilər.

Kvest tur və ekskursiyalar aşağıdakı formalarda keçirilir:

a)bələdçinin bilavasitə iştirakı ilə: bu halda, hər bir tapşırıq şəxsən bələdçi (aparıcı, animator) tərəfindən verilir;

b)vasitəçisiz kvest tur və ekskursiya: bu halda, iştirakçılar məlumat paketini (kvest-marşrutu) bir dəfəyə alırlar;

v)tapşırığı uzaqdan verilən kvest-ekskursiyalar: bu vəziyyətdə iştirakçılar smartfon, tablet istifadə edərək tapşırıq alırlar və ya GPS naviqatorundan istifadə edərək tapşırıq verilən nöqtəni axtarırlar (mobil axtarışlar).